# Məktəbəqədər yaşlı uşaqlarda ali hisslərin formalaşmasının psixopedaqoji xüsusiyyətləri

**Yeganə Ramazan qızı Mikayılova**
*Bakı Qızlar Universitetinin baş müəllimi*
**E-mail:** ymikayilova71@gmail.com

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d. Y.B. Əskərova

**Açar sözlər:** insan, mənəvi keyfiyyət, ali hisslər, davranış, xüsusiyyət, əxlaqi hiss, münasibət, tələbat, mədəniyyət

**Ключевые слова:** человек, духовное качество, высшие чувства, поведение, моральные чувства, отношение, требование, культура

**Key words:** person, moral quality, higher senses, attitude, feature, ethical feeling, relationship, demand, culture

Ali hisslər müəyyən cəmiyyət daxilində qəbul olunmuş əxlaq normalar əsasında sosial gerçəkliyin hadisələrinin qavranılması zamanı insanın keçirdiyi hisslərdir. Ali hissləri həm də mənəvi dünyagörüşü hisslər də adlandırırlar. İnsanın mənəvi keyfiyyətlərinin əsaslarının formalaşması hələ məktəbəqədər yaşda başlanır. “Məktəbəqədər dövr uşağın fəaliyyətin subyekti kimi formalaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Məqsədəyönəlişliyin əsası qoyulur” (1, s. 462). Bu yaşda uşaqlarda ali hisslərin təməli qoyulur: ilkin əxlaqi hisslər və təsəvvürlər formalaşır, davranışın ən sadə bacarıqları özünü göstərməyə başlayır. Ona görə, uşaqların sonrakı inkişafı bu prosesin nə qədər müvəffəqiyyətlə həyata keçirilməsindən asılıdır.

Psixoloqlar qeyd edirlər ki, məktəbəqədər yaşlı uşaqların hissləri daha intensiv inkişaf edir və ali hisslərin formalaşması, əxlaq tərbiyəsi üçün böyük imkanlarla səciyyələnir. Bu uşaqların özünə olan: ləyaqət və ya əksi, əminlik və ümidsizli; ətrafdakılara qarşı olan şəfqət, dostluq, qəzəb kimi hisslərində özünü göstərir. Uşağın hisslərinin formalaşması, onun normal inkişafı üçün onda ətrafdakılara qarşı müsbət emosional münasibət tərbiyə etmək böyük əhəmiyyətə malikdir. Böyüklərin rəhbərliyi altında məktəbəqədər yaş dövründə uşaq davranışın ilkin təcrübəsini əldə edir, yaxınlara, yaşıdlara, təbiətə, münasibətlər formalaşır, cəmiyyətin mənəvi normalarını mənimsəyir. “Uşaqların fəaliyyətinə rəhbərlik edərək, tərbiyəçi onlarda insan üçün mühüm olan müsbət əxlaqi keyfiyyətləri formalaşdırır” (5, s. 49-51).

Uşağın sosial varlıq kimi inkişafı üçün ən mühüm cəhət davranış normalarını bilməkdir. Güman edilir ki, normaların mənimsənməsi başqa insanlarla ünsiyyət təcrübəsində uşaqda davranış vərdişləri yaradır. Bu vərdişlərdə uşağı narahat edən emosioal güc təsəvvür edilmişdir: uşaq adət etdiyi davranışları pozaraq hərəkət etdikdə bu onda diskomfort yaradır. Digər tərəfdən güman edilir ki, uşaq bu normaları müəyyən emosional münasibət nəticəsində dərindən anlayır. Kiçik məktəbəqədər yaşlı uşaqlar yalnız insanlar üçün hərəkətin bilavasitə mənası nı nəzərə alaraq hərəkəti qiymətləndirirlər: ”Dalaşmaq olmaz, dalaşan uşaq böyüyün gözündən düşə bilər”. Böyük məktəbəqədər yaşlı uşaqlar isə artıq müəyyən davranışı, qiymətləndirməni ümumiləşdirirlər. “Yoldaşlarla dalaşmaq olmaz, çünki onları incitmək ayıbdır.” Həmçinin uşaq hisslərinin və hərəkətlərinin səmimiyyətini ayrıca vurğulamaq lazımdır. Belə ki, körpə ağlayan yaşıdını görüb, onun başını anasından gördüyü kimi sığallayır, təsəlli verərək, özü oynadığı oyuncağı verir” (5, s. 52-54).

Orta məktəbəqədər yaşda əxlaqi hisslər daha dərk edilmiş olur. Uşaqlarda doğma yerə sevgi, insanlara hörmət və minnətdarlıq hissi formalaşır, böyüklərlə mədəni ünsiyyət vərdişlərini formalaşdırmağa davam edirlər, yaşıdlarına həqiqəti demək, təmizliyə riayət etmək vərdişləri kimi müsbət əxlaqi hisslər formalaşır. Uşağın ümumi davranış qaydalarına uyğun gələn hərəkətləri, rəftar və davranışı böyüklər tərəfindən bəyənilir, uyğun gəlməyənlər isə pislənir. Bu da öz növbəsində uşaqda borc və utancaqlıq hisslərinin meydana gəlməsinə səbəb olur. Utancaqlıq hissi bəzən uşağın müəyyən qaydaları səhv yerinə yetirdikdə böyüklərin onlara tutduğu iradla birbaşa qarşılaşması ilə əmələ gəlir. Uşaq başa düşür ki, müəyyən qaydanı pozmuşdur, ona əməl etməmişdir. Bununla əlaqədar olaraq, uşaq özündə qorxaqlıq hiss edir, yanlış hərəkət etdiyini anlayır. Uşağı tərifləmək, mükafatlandırmaq, rəğbətləndirmək, onun gördüyü işi qiymətləndirmək, onda razılıq, məmnunluq və şəxsi ləyaqət hisslərinin meydana gəlməsinə səbəb olur. Hər hansı bir işə görə əgər uşaq tərif eşidibsə, o özü ilə qürur hissi duyaraq növbəti dəfə də işi həvəslə yerinə yetirməyə başlayır. Uşaq hər vəchlə çalışır ki böyüklər ondan razı qalsınlar. əgər məzəmmət eşidibsə, səhvini düzəltməyə, bir də o səhvi etməməyə çalışır.

Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi hisslərin inkişafına üç əsas amil təsir edir: ailə, yaşıdları və bağça. Müasir dövrdə dördüncü amil kimi televizor və kompyüteri də daxil edə bilərik.

Uşağın hərtərəfli inkişafında ailənin rolu əvəzsizdir. Ailə uşaq üçün kiçik bir dünyadır. Uşağın bu dünyasında ata-ana və digər yaşlılar qüsursuz və müqəddəs insanlardır. Buna görə də valideynlər bilməlidirlər ki, onlar uşaqlar üçün nümunədirlər. Və çalışmalıdırlar ki yaxşı nümunə olsunlar. ”Ailə uşağın sosiallaşmasında ilk vasitə, ilk təəssüratdır... Kiçik yaşlarından uşaqlara belə bir fikir aşılamaq lazımdır ki, insanın nəcib əməyi bütün sosial inkişafın əsasıdır” (2, s. 76-77). Ümumilikdə ailə şəraiti əxlaqi inkişaf üçün sağlam bir şəraitdir.

Mühüm əxlaqi hisslərdən olan vətənpərvərlik hissi hələ kiçik yaşlardan uşaqlara aşılanmalıdır. Ona görə ki, insan hissləri içərisində ən müqəddəsi, bəlkə də irsi, fitri mahiyyət daşıyanı insanı tərəqqiyə, inkişafa, yaradıcılığa təhrik edəni Vətən sevgisidir, vətənpərvərlikdir. Uşaqların öyrəndiyi yeniliklər, iştirak etdikləri kütləvi tədbirlər, bədən tərbiyəsi və idman, müxtəlif oyunlar onlarda belə bir əqidəni inkişaf etdiri ki, torpaq, vətən müqəddəsdir.

Mənəvi münasibətlər - yoldaşlıq və qarşılıqlı yardım, məsuliyyət, hörmət, səmimilik və s. kollektivdə formalaşır. “Şəxsiyyətin müvəffəqiyyəti...sədaqətli dostluq münasibətləri ilə ölçülür” (3, s. 184). Uşaqların kollektivdaxili qarşılıqlı münasibətlər təcrübəsini mənimsəməsi onların şəxsiyyətinin formalaşması üçün həlledici əhəmiyyətə malikdir.

Hər bir uşaq böyüklərin hərəkətlərini müşahidə etməklə öyrənir. Uşaqlarımızın necə davranmasını istəyiriksə, biz də elə davranmalı yüksək əxlaqlı uşaqlar yetişdirməliyik. “Uşaqlar ana və atanın yerişini yeriyə bilməsələr də, onların, necə deyərlər ayaqqabılarını geyirlər və bir qayda olaraq özlərini onlara oxşadırlar. Bu bilavasitə identifikasiyanın səviyyəsindən asılıdır” (4, s. 312).

Ümumiyyətlə, uşaqlar torpağa atılmış toxum kimidir. Bu torpağa nə atılıbsa, onun da nəticəsi götürüləcək. Buna görə də hələ kiçik yaşlarından uşaqlarda müsbət əxlaqi hissləri, keyfiyyətləri formalaşdırmaq, pis xüsusiyyətlərinin qarşısını vaxtında almaq lazımdır. Bunun üçünsə, valideynlərlə müəllimlərin qarşılıqlı fəaliyyəti mütləqdir. Çünki yetişməkdə olan gənc nəsil bizim gələcəyimizdir.

**Məqalənin aktuallığı.** İnsanların davranışı, qruplar arasındakı qarşılıqlı münasibətlər, insan mədəniyyətinin məhsulları, birgəyaşayış qayda-qanunları, dərk olunması vacib olan məsələlərin elmi cəhətdən araşdırılması həmişə diqqət mərkəzində olmuşdur. Məqalənin də aktuallığı məhz bu zərurətdən irəli gəlir.

**Məqalənin elmi yeniliyi.** Ali hisslərin məzmunu şəxsiyyətin inkişaf səviyyəsindən, dünyagörüşündən, əqidəsindən, bilik və bacarığından asılı olduğu üçün subyektiv xarakter daşıyır. Məqalədə də xüsusi olaraq vurğulanır ki, ali hisslər şəxsiyyətin formalaşması prosesində, mürəkkəb sosial tələbatların ödənilməsi bağlı əmələ gəlir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri və praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi üçün dərslik. ”Nurlan” mətbəəsi. Bakı, 2007, 700 s.
2. N. Çələbiyev. Ailə psixologiyası. Bakı, “Mütərcim”, 2015, 422 s.
3. R. Əliyev. Mentalitet. Bakı, “Elm və təhsil”, 2009, 229 s.
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 364 s.
5. Грейс Крайг, Дон Бакуи. Психология развития. 9-ое издание. Санкт-Петербург, 2006, 939 стр.

**Е.Р. Микаилова**

## Психопедагогические особенности формирования высших чувств

## Резюме

В статье речь идет о человеческом поведении, взаимоотношениях между группами, продуктах человеческой культуры, правилах сосуществования, вопросах, которые важно понять. Отмечено, что содержание высших чувств субъективно, поскольку зависит от уровня развития личности, мировоззрения, убеждений, знаний и умений. Говорят, что высшие чувства формируются в процессе формирования личности, в связи с удовлетворением сложных социальных запросов.

**Y.R. Mikayilova**

## Psychopedagogical features of the formation of higher feelings

## Summary

The article deals with human behavior, mutual relations between groups, products of human culture, rules of coexistence, issues that are important to understand. It is noted that the content of higher feelings is subjective because it depends on the level of personality development, worldview, beliefs, knowledge and skills. It is said that higher feelings are formed in the process of personality formation, due to the satisfaction of complex social demands.

**Redaksiyaya daxil olub:** 12.09.2022